2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 14 oktyabr 2015-ci il tarixli 98 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 16 oktyabr 2015-ci il

2015-ci il oktyabrın 14-də 123 saylı Kəlbəcər seçki dairəsi üzrə qeydə alınmış deputatlığa namizəd Həmidov İsgəndər Məcid oğlu Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək, seçkiqabağı təşviqatın aparılmasına ona imkanın yaradılmamasını və maneçilik törədildiyini göstərmiş, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü Validə Kazımova həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və “Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın nəzərdə tutduğu şikayətvermə müddətində verilmiş, lakin bu zaman Məcəllənin və adı çəkilən Təlimatın müəyyən etdiyi aidiyyət qaydaları pozulmuşdur.

Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-1.12-ci və yuxarıda göstərilən Təlimatın 8.6-cı və 10.1.6-cı bəndlərinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1-ci, 2-ci, 4-cü, 6-cı, 7-ci, 8.6-cı və 10.1.6-cı bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 123 saylı Kəlbəcər seçki dairəsi üzrə deputatlığa qeydə alınmış namizəd Həmidov İsgəndər Məcid oğlunun 14 oktyabr 2015-ci il tarixli 98 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 123 saylı Kəlbəcər seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Validə Kazımova